# Bizim gücümüz xalq – iqtidar birliyindədir

*Dövlət – vətəndaş münasibətləri sağlam zəmində qurulub. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Siyasi ekspertlərin və ölkə mətbuatının "Gücünü xalqından alan lider" adlandırdığı Azərbaycan Prezidenti İlham Əliyev bu ifadənin həqiqət olduğunu dəfələrlə vurğulayıb. Dövlət başçımızın fəaliyyət tezisi belədir ki, xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitlik olmayan yerdə ölkələr dağılır, insanlar əziyyət çəkir, fəlakətlər baş verir. Biz bunu yaxın tarixdə dəfələrlə görmüşük. Kütləvi informasiya vasitələri yazırlar ki, Azərbaycanın hər bir vətəndaşının və dövlətimizin maraqları daim Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində olub. Geridə qalan 16 ildə ölkəmizdə hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. İlham Əliyevin yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir.**



Siyasi fəaliyyətinin bütün istiqamətlərində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev daim xalq ilə təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir. Lənkəranda bina uçarkən, Kürqırağı kəndlər daşqına məruz qalarkən, Zaqatala -- Balakən bölgəsi sakinləri dağıdıcı zəlzələnin fəsadları ilə üz-üzə qalarkən qorxu, təlaş, həyəcan içərisində olan insanlar Prezident İlham Əliyevi öz kəndlərində, öz həyətlərində gördülər.

Azərbaycan Prezidentinin hər zaman xalqının yanında olduğunun, onların problemlərinin həllinə xüsusi həssaslıqla yanaşdığının daha bir nümunəsinə isə bu il fevralın 5-- 6-da baş verən zəlzələlər nəticəsində zərər çəkmiş Şamaxı, İsmayıllı və Ağsu camaatı şahid oldu. Dağıdıcı zəlzələdən dərhal sonra dövlətimizin başçısı həmin əraziyə gedərək, vəziyyətlə yerində tanış olaraq vətəndaşlarla görüşdü, təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində göstərişlər verdi, müvafiq sərəncam imzaladı və Prezidentin Ehtiyat Fondundan vəsait ayırdı.

Hamının yadındadır. Həmin rayonlarda fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində işlərə sürətlə başlanıldı. Təbii fəlakət nəticəsində dağılan bir sıra evlər təxminən bir ay sonra əsaslı şəkildə təmir edilərək dövlətimizin başçısının və birinci xanımın iştirakı ilə sahiblərinə təqdim olundu. Əlbəttə, bu, Azərbaycan Prezidentinin, dövlətinin öz vətəndaşına göstərdiyi diqqətin bariz nümunəsidir.Hər bir Azərbaycan vətəndaşı da Prezidentinin, dövlətinin onun yanında olduğunu bilir, üzləşdiyi problemlərin ədalətli şəkildə, qısa müddət ərzində həll ediləcəyinə inanır.

Həmin günlərdə bölgə müxbirimizin Şamaxıdan hazırladığı qəzet materiallarında qeyd edilirdi ki, zəlzələnin törətdiyi fəsadlardan əziyyət çəkən insanlarla söhbət zamanı da vətəndaşlar Prezidentin dar gündə onların yanında olmasından, göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edirdilər. Zəlzələdən ziyan çəkmiş Şamaxı sakini Sevda Həsənova müxbirimizlə söhbətində demişdi ki, Prezidentimiz bizimlə görüşdü, uçan divara, evin içərisindəki dağıntılara baxdı. Bizə təsəlli verib, narahat olmamağı, tezliklə hər şeyin qaydaya salınacağını bildirdi. Bu, bizə böyük təsəlli oldu: "Dövlətimiz, onun rəhbəri bu ağır gündə bizim yanımızdadır. Sağ olsun Prezidentimiz!"

Yeri gəlmişkən, həmin hadisələr Şamaxı sakini Saray nənənin də ölkə miqyasında tanınmasına səbəb olmuşdu. Saray nənə zəlzələdən dərhal sonra onların yanına gələn dövlət başçımıza demişdi ki, Sizin bu gəlişiniz tək mənim yox, zəlzələdən zərər çəkənlərin hamısının ürəyinə toxtaqlıq verdi. Amma o zaman Saray nənə bilmirdi ki, cəmi bir aydan sonra Prezident onların tamamilə yenidən tikilmiş evinə qonaq gələcək və çay süfrəsinə qonaq olacaq. Bu, baş verdi və Saray nənə mətbuat təmsilçilərinə dedi ki, Prezidentin öz xanımı ilə birlikdə bizim təzə evə gəlməsi həyatımın ən xoşbəxt, sevincli anıdır: "Onun tapşırığı ilə bu gözəl ev bir ayın içində tikildi. Bunu sevimli Prezidentimizin Qadınlar bayramı münasibətilə mənə hədiyyəsi kimi qəbul etdim".

Prezident İlham Əliyevin şəhid ailələri ilə görüşdə nümayiş etdirdiyi sadəlik, səmimiyyət, "Diqlas" ticarət mərkəzində baş vermiş yanğından dərhal sonra müvafiq qurum rəhbərlərinin iştirakı ilə müşavirə keçirməsi, məsələ ilə əlaqədar komissiyanın yaradılması, yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardımın göstərilməsi də hələ uzun illər heç kəsin yadından çıxmayacaq. Son iki ildə əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri, aparılan islahatları da xatırlatsaq, "heç kəsin yadından çıxmayacaq" – ifadəsini dönə-dönə təkrarlamalı olacağıq.

Yeri gəlmişkən, Azərbaycandakı xalq – iqtidar birliyi beynəlxalq ictimaiyyət tərəfindən də yüksək qiymətləndirilir. Bir müddət əvvəl ölkə mətbuatında "Azərbaycan dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi top-20 ölkənin arasındadır" adlı xəbər və analitik material sərlövhələrinə çox rast gəlmişdik. Söhbət ondan gedirdi ki, Dünya İqtisadi Forumunun "Qlobal rəqabətlilik 2017-2018" hesabatının "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycanın dünyada 20-ci yerə yüksəlməsi birbaşa əhali və biznes nümayəndələri arasında aparılan sorğulara əsaslanırdı. Bu isə onu göstərir ki, obyektiv sorğu nəticəsində Azərbaycanda iqtidarla xalq arasında böyük etimadın olduğu təsbit edilib.

Ekspertlər yazırdılar ki, Azərbaycan bu kateqoriyada "Böyük İyirmilik" ölkələrinin hər 4-dən 3-nü geridə qoyub: "Bu kateqoriyada Azərbaycan bütün BRİCS ölkələrini ( sürətlə inkişaf edən beş ölkədən ibarət olan bir qrupdur. Üzvləri: Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası -- Brazil, Russia, India, China, South Africa -- BRICS –red.), postsovet respublikalarını və türk dövlətlərini qabaqlayır. Azərbaycan "Qlobal rəqabətlilik hesabatında" daha bir kateqoriya – "Dövlət tənzimlənməsinin yükü" göstəricisinə görə dünyada 15-ci yerdə qərarlaşıb.

Bu isə o deməkdir ki, Azərbaycan dünyada dövlətə ən çox etimad göstərilən və dövlətin əhaliyə və biznesə ən az yük olduğu ölkələrin sırasındadır. Dünya İqtisadi Forumunun "Qlobal rəqabətlilik" hesabatında "Siyasətçilərə ictimai etimad" kateqoriyası üzrə Azərbaycanın 137 ölkə arasında 20-ci pilləyə yüksəlməsi Prezident İlham Əliyevin siyasətinə əhalinin və biznesin yüksək etimadının göstəricisi olmaqla yanaşı, həm də beynəlxalq ictimaiyyətin layiqli qiymətidir.

Sonda qeyd edək ki, ötən il aprelin 18-də prezident kimi növbəti dəfə and içən İlham Əliyev bu məsələlər haqqında xüsusilə danışmış və demişdi ki, xalqın ona olan etimadı onun xalqa olan məhəbbətinin qarşılığıdır: "Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir... Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*